## Azərbaycanın əfsanəvi qəhrəmanı

# *Xalqımızın əfsanəvi qəhrəmanı faşizmə qarşı savaşların böyük sərkərdəsi Həzi Aslanovun anadan olmasının 110 ili tamam olur*



Hər bir qəhrəmanın həyatı mənsub olduğu xalq üçün xüsusi əhəmiyyət kəsb edir. Amma əslində bütün qəhrəmanların həyatı insanlığın təhlükəsiz yaşamı naminə öyrənilməli, yadda saxlanılmalıdır. Parlaq xatirələr yeni nəsillərin tərbiyəsində mühüm əhəmiyyət kəsb edir.

Həyatı örnək olan, qəhrəmanlığı əfsanəyə çevrilmiş Həzi Aslanov da belə simalardandır. Onun həyatını öyrənmək, nəticə çıxarmaq gələcək nəsillərə çatdırmaq bizim borcumuzdur.

Tarixdə elə günlər var ki, onlar haqqında qocalmayan xatirə ağrı ilə nəsillərinyaddaşında yaşayır. 1941-ci ilin iyunun 22-si keçmiş Sovet İttifaqının bütün xalqları üçün Böyük Vətən müharibəsinə çevrilən amansız bir müharibənin başlandığı bir gündür.

İkinci dünya müharibəsi bəşər tarixində ən dəhşətli müharibə idi. Azərbaycan Sovet İttifaqı tərkibində fəal iştirak etmişdir. 700 minə yaxın Azərbaycan vətəndaşı Müharibədə qəhrəmancasına vuruşmuş, onların yarısı həlak olaraq geri dönməmişlər.

Hər il Böyük Vətən müharibəsində qələbənin il dönümü günü Veteranlar qürurla Məşhur Vətən igidini 2 dəfə Sovet İttifaqı qəhrəmanı qvardiya general-mayoru Həzi Əhədoğlu Aslanovu Bakının Dağüstü parkında (indiki Şəhidlər Xiyabanında) yerləşən məzarını ziyarət etməklə yad edirlər. Düşmənin ilk zərbəsini üzərinə götürən, həyatını Vətən uğrunda verənlərin, aldıqları yaralardan sonradan dünyasını dəyişənlərin xatirəsini xalqımız əbədi saxlayır.Həzi Əhədoğlu Aslanov da bu qəbildən olan qəhrəmanlardandır. Azərbaycanın Ümummilli lideri Heydər Əliyev və layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ürək istisi ilə Həzi Aslanovun xidmətlərindən, onun Vətənə olan məhəbbətindən, göstərdiyi qəhrəmanlıqlardan, canından keçməyə hazır olduğundan çıxışlarında dəfələrlə bəhs etmişdir.

Həzi Əhəd oğlu Aslanov 1910-cu ildə Lənkəran şəhərində doğulmuşdu. O, on yaşında ikən ilk dəfə Qızıl Ordu komandiri ilə qarşılaşmışdı. O vaxtdan qırmızı komandirolmaq arzusu ilə yaşamış və 1924-cü ildə Bakıya gəlib hərbi hazırlıq məktəbinə daxil olmuş, ondan sonra isə Leninqrad Kavaleriya məktəbində təhsilini davam etdirmişdi. Kavaleriya məktəbini müvəffəqiyyətlə bitirdikdən sonra Ukrayna və Belorusiyanın müxtəlif yerlərində xidmət göstərmişdi.

Faşist istilaçıları ilə müharibəni tank batalyonu komandiri, kapitan Aslanov Lvov şəhəri yaxınlığında qarşıladı. Onun ilk döyüşdə iştirakı Zoloçev məntəqəsi rayonunda olmuşdu.

Sonradan Moskva altında döyüşlərdə vuruşdu. Mühasirəyə düşmüş kapitan Aslanov, düşmən həlqəsinin yarılmasında rəhbərliyi öz üzərinə götürərək, tabeliyində olan hərbi bölmə ilə birlikdə digər döyüş hissələrini, o cümlədən hərbi sursatla dolu 50 avtomaşını xilas etmişdi. O döyüşdə onun tankının mexanik-sürücüsü yaralanır. Belə bir vəziyyətdə batalyon komandiri özü sükan arxasına keçərək, döyüşçüləri hücuma aparır.

1942-ci ilin yazı və yayı... Aslanov tank briqadası komandirinin müavinidir. Stalinqrad altında döyüşlərdə, o, Stalinqrad cəbhəsinin 2-ci qvardiya ordusunun tərkibində 55-ci əlahiddə tank alayının komandiridir. Hücum əməliyyatlarında podpolkovnik Həzi Aslanovun hərbi təşkilatçılıq bacarığı özünü bütün parlaqlığı ilə göstərir. 19 noyabr 1942-ci ildə tank alayı Barmantsak gölü rayonunda hücuma keçir və bir neçə saat ərzində düşmənin 4 tankını, 5 minomyot batareyasını, 1 ağır topunu sıradan çıxarır, 3 piyada tağımını məhv edir, 700-dən çox əsgər və zabitini əsir götürür. Həmən gün Aslanovun tankçıları hücumu genişləndirərək Plodovitovye kəndini faşistlərdən azad edir.

22 noyabr 1942-ci ildə Aslanovun tankçıları döyüşlərlə Sovetskoye qəsəbəsinə çıxır, sabahı gün Cənub-Qərb cəbhəsi qoşunları ilə görüşərək Stalinqrad altında düşmən hərbi qruplaşmasının mühasirəyə alınmasını tamamlayırlar. Qarşıda hələ ağır döyüşlər durur-du. İndi Aslanovun alayı qarşısında duran vəzifə Katelnikov qəsəbəsi rayonunda toplanmış düşmənin böyük hərbi birləşməsinin hücumunu dəf etmək idi. Hitlerçilər Stalinqrad altında mühasirəyə düşmüş qoşunlarını azad etməyə cəhd edirlər. Vernekumsk xutoru (indiki Volqoqrad vilayəti, Sovet Oktyabrı rayonu) yaxınlığında düşmən yolunu podpolkovnik M.S.Diasomidzenin atıcı alayı və podpolkovnik Həzi Aslanovun tankçıları kəsir və onlar mətinliklə vuruşurlar.




Sovet İttifaqı marşalı A.İ.Yeryomenko öz xatirələrində yazırdı: "Müdafiədə heyrətamiz mətnlik və cəsarət göstərərək H.Aslanov tankçıları sonradan əks hücuma keçərək, 6 gün davam edən döyüşlərdə düşmənin 45 tankını, 26 topunu, 50 avtomaşınını, 2 mindən yuxarı əsgər və zabitini məhv etmiş, 700 hitlerçini əsir götürmüşdü".

"General Həzi Aslanov" sənədli filmi üzərində işlərkən kinorejissor Musa Bağırov Volqoqradda Həzi Aslanovun vuruşduğu tank korpusunun keçmiş komandiri, Sovet İttifaqı Qəhrəmanı, General-polkovnik V.T.Obuxovla görüşmüşdü. O belə söyləyirdi:-Aslanovun briqadası meşə qurağında idi. Bir balaca uzaqlıqdakı, çayın o biri sahilində - faşistlərdir. Biz bilirdik ki, almanlar hücuma hazırlaşırlar, onları qarşılamaq lazımdır. Aslanova əmr verdim ki, kəşfiyyat göndərsin və nəticəsini mənə çatdırsın. Gecə olduğu məntəqədən çox gec çıxdı. Səhər isə radio ilə tanış səs eşitdim: -"Yoldaş general! Viktor Timofeyeviç! Kənd bizimdir!"

Əvvəl başa düşmədim söhbət hansı kənddən gedir. Onun izahından sonra azad olunmuş kəndə getdim. Məlum oldu ki, adyutanı və sürücüsünü götürüb, Aslanov özü kəşfiyyata getmişdir. Düşmənin yerləşdiyi mövqeləri dəqiqləşdirib, gücü haqqında təxmini qeydlər etdikdən sonra o, briqadaya qayıdır. Səhər isə almanları iki tərəfdən vurur.

O belə əməliyyatların ustası idi. Faşistlər bunu ağıllarına belə gətirə bilməzdilər, çoxlu texnika qoyub tələş içində qaçmışdılar. General Aslanova özünü təhlükə altına saldığına görə - töhmət verilmiş, igidliyinə görə isə dövlət mükafatına təqdim olunmuşdu.

Həzi Aslanov döyüşlərə hərbi elmi yaradıcılıqla yanaşır, bu təcrübəni məqalələrində göstərirdi. Həzi Aslanovun gözəl cəhətlərindən biri də onun döyüşçüləri ruhlandırmaq bacarığı idi. Onun qətiyyətliliyi, möhkəm iradəsi, cəsarətliliyi və komandirlik istedadı şəxsi heyəti qələbə uğrunda düşmənlə qəhrəmanlıqla vuruşa atılmağa sövq edirdi.

1942-ci ilin dekabrında "Pravda" və "Krasnaya zvezda" qəzetlərinin ilk səhifələrində Həzi Aslanov və M.Desiamidzenin fövqəladə hərbi istedadına və yüksək hərbi rəşadətinə həsr olunmuş yazılarda, tabeliyində olan hissələrə uğurla komandanlıq etmək üçün, bu şanlı komandirlərin təcrübəsini öyrənmək haqqında Qızıl Ordu zabitlərinə çağırış səslənmişdi. 22 dekabr 1942-ci ildə Həzi Əhəd oğlu Aslanova Sovet İttifaqı Qəhrəmanı fəxri adı, alayına isə "Qvardiya" adı verilmişdi.

1942-ci ilin fevralın 14-də Aslanov alayı Rostov-Dona soxuldu. 1943-cü ilin noyabrında Kiyevin cənubunda Aslanovun komandanlıq etdiyi tankçıların düşmən arxasına yürüşü isə həqiqətən əfsanəvi hadisə olmuşdu. O döyüşlərdə onun qvardiyaçıları düşmənin 3 tankını, 174 topunu və xeyli hərbi texnikasını məhv etmişdi. Həzi Aslanovun komandanlığı altında tankçılar Minsk şəhərinin azad edilməsində mühüm rol oynamışdılar. Ali Baş Komandanın əmrində briqada heyətinə minnətdarlıq bildirilmişdi.

Rəşadətli tank briqadası komandiri haqqında əfsanələr gəzirdi. Bir dəfə onun döyüşə rəhbərliyini görm üşdülər: "İki gün öncə tankçıların Berezinadan ağır maşınların keçidi üçün yararlı olmayan, "yamaqlanmış" körpüyə doğru sürətli sıçrayışı oldu. Aslanov yeni körpünün salınmasını gözləmədən dərhal Pleşenistdən, müşahidə borusu ilə görünən düşmən qarnizonunu vurub çıxarmağı qərara alır.

Hücum əməliyyatının gedişində tankistlər partizanlarla mübarizə üçün faşistlər tərəfindən Pleşenits kimi dayaq məntəqələrinə çevrilmiş bir neçə kənd və şəhərcik görürlər.

Selets, Sloboda, Beqoml, Zembin, Voystom, Olkoviçi - hər yerdə polis qarnizonları dururdu. Onlar bir neçə sıra tikanlı məftillə yüksək hasara alınmış, hasar arxasında, künclərdə dzotlar qurmuşdular. Adətən hasar arxasında, müşahidə etmək, pulemyot atəşi aparmaq üçün qüllələr qoyulurdu.

Pleşenist belə dayaq məntəqəsi idi. Həzi Aslanovu ondan Berezina çayı və bataqlıqlaşmış sahil ayırırdı.

Dar atəş bacaları və ambrazuralar, qalın zirehli darvazalar, iki cərgə tirlər arasında ucaldılmış qum təpələri - maneələr...

Aslanov Pleşenitseni dayanmadan ələ keçirməyə qərar verir. Bunun üçün gecə, qvardiya baş serjantı Korovçenkonun rəhbərlik etdiyi zirehli maşını, bir topu, iki minomyotu, bir qrup avtomatçını səssiz Berezina çayından keçirirlər.

Dəstə gizlincə bu yerin şimal kənarına çıxır. Zirehli maşın yolayrıcındakı dotu ələ keçirməyə müvəffəq olur.

Bu an onun yanından düşmənin böyük araba karvanı keçirdi. Qırmızı fişənglə dotun alındığı və faşist cərgəsinin parçalanması xəbəri göndərilir. Minomyotçular karvanın baş hissəsini atəşə tuturdular. Bu zaman zirehli maşın yola sıçrayaraq karvanın quyruq hissəsinə "cumur" və iki arabanı əzərək lap yuxarıdan atəşə başlayır. Belə cəsarət düşməni təşvişə salır, onun iki tankı döyüş meydanını qoyub qaçır. Faşistlərin cənuba çıxmaq cəhdlərinin hamısının qabağı alınır.

Ertəsi gün Həzi Aslanovu Vileykanın cənubi-qərbində Viliya çayı üzərindən keçiddə görürlər. Köhnə körpünün sudan kömürləşmiş taxta dirəkləri boylanırdı. Viliya bu yerdə isti yay günlərində sinəyə qədər dərin və ensiz idi. Əvvəllər bu yerlərdən hansısa sərhəd keçirdi. Çox illər atılıb qalan daş sərhəd sütunları işə yarayır: onları çayın dərin yerlərinə uzadırlar. Bəzi sürücülər motor ventilyatorlarından qayışları (motoru söndürmək üçün) çıxarırdılar. Yeni sualtı keçidin qurulması ilə dərhal maşınların keçidinə başlanır.

***(Davamı 3-cü səhifədə)***

# *Xalqımızın əfsanəvi qəhrəmanı faşizmə qarşı savaşların böyük sərkərdəsi Həzi Aslanovun anadan olmasının 110 ili tamam olur*

*(Əvvəli 2-ci səhifədə)*



Smorqoni hüdudlarında Viliya çayı bir daha briqadanın yolunu keçmiş oldu. Meşə qırağında Həzi Aslanov müşahidə məntəqəsi qurdu: oradan çay, dağıdılmış körpüyə aparan şosse, şosseden bir qədər uzaqda Perevorı kəndi gözəl görünürdü. Elə bil kənddəki evlər döyüş yerindən şam meşəsinə qaçırdı.

Həzi Aslanov gözlərini binokldan çəkməyərək uzun müddət susaraq durmuşdu. Sonra ot üstə oturub xəritəyə baxdı. Qonşuluqda taxda dam örtüyü altında radiostansiya məntəqəsi yaradılmışdı. Radist qızın səsi eşidilirdi.

Aslanov tələsik xəritəni qatlayıb avtomatı götürdü və "getdik!" əmrini verdi; xəritəni planşetə qoya-qoya furajkasını başına çəkdi və zirehli maşına tərəf yollandı.

Zirehli maşın çaya, dibində daş sütunlar düzülmüş yerdən girdi. Kəşfiyyatçılar bilərəkdən çayın bu sahəsini, qıraqlardan tirlər sancmaqla nişanlamışdılar. Onlar baken rolunu oynayıb sürücülərə farvateri - keçid yolunu göstərirdi.

Tankçılar alova bürünmüş Smorqonindən keçirdilər. Hələ Qərb tərəfdə atəş səsi bitməmiş küçələrdə sakinlər görünməyə başladı. Onların əksəriyyəti evsiz-eşiksiz qalmışdı. Üzləri hisdən qaralmış bu insanlar xoşbəxt idilər - "çox gözlədilər axır ki, istəklərinə nail oldular!"

Qana bürünmüş, incidilmiş, əzab çəkmiş, ancaq yenilməmiş, ləyaqətini saxlamış, intiqam hissi ilə dolu yenidən dirçəlmiş Belorusiya, üç il ağır döyüş yolu keçib onu xilas etməyə tələsən xilaskarlarını qarşılayırdı. Bu həmən o döyüşlər idi ki, qəhrəmanımız Belorusiya uğrunda Moskva və Smolensk, Orş və Vitebsk altında vuruşlardan çıxmışdı.

Öz yoluna davam edərək Həzi Aslanovun tankçıları 1944-cü ilin iyul ayının 7-də, birinci olaraq Vilnüs şəhərinə daxil olurlar. Həmən vaxt Şyanlyay şəhərinin azad edilməsində fəal iştirak etdiyinə görə Həzi Aslanovun 35-ci qvardiya tank briqadasına fəxri "Syanlyay" adı verilir.

1944-cü ilin payızında, Riqa ətrafında düşmən müdafiə xəttinin yarılmasında aslanovçular yüksək döyüş məharəti və şücaəti göstərmişdilər. Qərbi Dvina çayını keçərək 35-ci qvardiya tank briqadası geriyə çəkilən düşmənin cinahlarına qəfildən zərbələr endirməklə onun yolunu kəsir. Beləliklə, Aslanovun tankçıları bu rayonda faşist qoşunlarının mühasirəyə alınması və əsir götürülməsi üçün əlverişli şərait yaratmış olurlar. Belorusiya və Pribaltikanın azad edilməsi uğrunda döyüşlərədə iştirakına görə Həzi Aslanovun tank briqadası Ali Baş Komandanın on dəfə minnətdarlığına layiq görülür.

35-ci qvardiya Şanlyay tank briqadasının döyüşçüləri öz qəhrəman komandirləri olan Həzi Əhəd oğlu Aslanova dərin hörmət bəsləyir, onu doğma ataları kimi sevirdilər. Faşist qəsbkarlarına qarşı briqadada çiyin-çiyinə ruslar, ukraynalılar, beloruslar, azərbaycanlılar, özbəklər və başqaları vuruşurdular.

Kəşfiyyat briqadasının rəisi, polkovnik N.Ronin öz xatirələrində yazırdı: _ "Pribaltikada əmr almışdı: nəyin bahasına olursa-olsun bu dənizyanı şəhərcik - faşist müdafiəsinin əsas məntəqəsi azad edilməlidir".

Ancaq qüvvələr nisbəti də bərabər deyildi. Almanlar canlı qüvvə və texnikada xeyli üstün idilər. Vəziyyət mürəkkəb olsa belə, əmr mütləq icra olunmalıdır. Qərargahda çox fikirləşdilər, müxtəlif əməliyyat planları təklif etdilər, ancaq Həzi Aslanov onların hamısını rədd etdi. Nəhayət, bütün maşınların, tankların, yük maşınlarının, motosikllərin yedəkçələrin belə hazır olmasını əmr etdi. Onların hamısının fənərlərinin işlək vəziyyətdə olması vacib şərt kimi əmirdə xüsusilə göstərilmişdi.

Həzi Aslanovun planı ilə bütün maşınlar, motosikllər, tanklar arasında qoyuldu. Birdən gecə qaranlıqlarını onlarca maşın fənərlərinin işıqları dağıtmağa başlayır. Mərkəzdən və hər iki cinahdan tanklar sel kimi axışır, motorlar guruldayırdı. Elə bir təsəvvür yaranmışdı ki, guya bütöv bir tank korpusu hücuma keçmişdir. Faşistlər tezliklə geri çəkildilər. Beləliklə, itkisiz bu yaşayış məntəqəsi ələ keçirildi. Gecə, qəflətən cinahlardan hücuma keçmək onun taktikası idi.

24 yanvar 1945-ci ildə qvardiya general-mayoru Həzi Aslanov müəmmalı şəkildə həlak olmuşdur (bax: M.Bağırov "Sərkərdənin taleyi" Bakı" 3 saylı mətbəəsi" ASC, 2015-ci il, 214 səh).

I Pribaltika cəbhəsinin komandanlığı Azərbaycan xalqına öz başsağlığında yazırdı: "Vətən uğrunda döyüşlərdə Həzi Aslanov çox kahkəşanlı bir yol keçmişdir.

O əsl bahadır kimi Qələbə bayrağını Kırımdan, Moskvadan, Stalinqraddam Dneprə kimi yüksək saxlamış, onun tankları Belorusiya və Pribaltika uğrunda döyüşlərdə sarsıdıcı zərbələrlə düşmənin müdafiə istehkamlarını dəfələrlə darmadağın etmişdi.

Həzi Əhəd oğlu öz döyüş təcrübəsində, hərbçi həyatında Azərbaycan xalqının qəhrəmanlıq əzmini təcəssüm etdirmişdir. General-mayor Həzi Aslanovun parlaq xatirəsi bizim, I Pribaltika cəbhəsinin bütün döyüşçülərinin ürəyində əbədi yaşayacaqdır".

Qvardiya general-mayoru H.Ə.Aslanov Bakıda dəfn edilmişdir. Şanlı tankçıya abidələr Azərbaycanın paytaxtında, Lənkəran rayonundakı sovxozun ərazisində ucaldılmışdır. Bakıda zabitlər evi, Volqoqradda hərbi məktəb onun adını daşıyır. Hər iki şəhərdə orta məktəblər də onun adı ilə bağlıdır. Lənkəranda onun ev-muzeyi təşkil olunmuşdur.

Qorxmazlığa, mətnliyə, cəsarətə, göstərdiyi şücaətə, döyüş məharətinə görə qvardiya general-mayoru Aslanova ikinci dəfə Sovet İttifaqı Qəhrəmanı fəxri adı verilmişdir. O bir sıra dövlət mükafatlarına layiq görülmüşdür. Müdafiə Nazirinin əmri ilə Həzi Əhəd oğlu Aslanovun adı həmişəlik olaraq Bakı Ali Birləşmiş ümumhərbi komandanlıq məktəbinin 1-ci tağımının siyahısına yazılmışdır.

Bakı Müharibə Veteranları Komitəsinin nəzdində iki dəfə Sovet İttifaqı Qəhrəmanı, qvardiya general-Mayoru H.Ə.Aslanovun xatirə komitəsi yaradılmışdır. Onun əsas vəzifəsi - faşist qəsbkarlarının darmadağın edilməsində H.Ə.Aslanovun qoyduğu irsin yaşadılması, onun əsasında Vətən müdafiəçilərinin yeni nəslinin tərbiyə edilməsi sahəsində iş aparılmasıdır. Komitə həmçinin Böyük Vətən müharibəsində Azərbaycan Respublikasının oynadığı rolu fəallıqla təbliğ edir, tanınmış generala xatirə guşəsi yaradır.

Hazırda torpaqlarımız erməni işğalçılarından azad edilmişdir. İndi işğaldan azad edilmiş ərazilərin bərpası bizim əsas vəzifəmizdir. Bu müharibədə böyük hünər göstərmiş qəhrəman tankçılarımız Həzi Aslanov ənənələrini davam etdirib, yaşadıblar. Qarabağın azad olunması uğrunda qəhrəmanlıq göstərmiş tankçılarımızın adları azad olunmuş ərazilərdə əbədiləşdiriləcək. Və yəqin ki, onlar haqqında yazılan kitablarda Həzi Aslanov ənənləri də öz əksini tapacaqdır.

Qarabağ uğrunda savaş asan başa gəlməyib, ona görə də torpaqlarımızı göz-bəbəyi kimi qorumaq üçün əsgərlərimizə qəhrəmanlıq dərsləri keçməliyik. Onları Həzi Aslanovdan günümüzə qədərki qəhrəmanların ruhunda böyütməliyik, tərbiyə etməliyik. Tarix göstərir ki, yaddaşı güclü olan xalqlar özlərini hifz edə bilirlər. son200 illik tarix Azərbaycan xalqının taleyində çox facianə səhifələr yazıb. Erməni faşistləri bizə dəfələrlə xəyanət edərək tarixi yurdlarımızı talan edibl ər. insanlarımızı qətliama məruz qoyublar. Demək ibrət üçün, olanları yaddaşımızda saxlamaq üçün kifayət qədər əsas var.

Ali Baş Komandanın rəhbərliyi altında Azərbaycan ordusu çox böyük tarixi qələbələr qazandı. Suqovuşan uğrunda döyüşlər şər əjdahasının başını əzdi. Tərtər çayının qabağını açdı. Fizuli uğrunda döyüşlər ən güclü sədləri darmadağın etdi. Cəbrayıl uğrunda döyüşlər Xudafərini azad etdi. hadrut, Zəngilan, Qubadlı... düşməndən təmizləndi. Əfsanəvi Şuşa döyüşlərini necə yaddan çıxarmaq olar? Düşmən Azərnaycan ali baş komandanının ultimatumunu qəbul etdi, kapituliyasiya bəyanatına imza atdı.

Bu tarixi qələbələri təsadüfi sadalamıram. Ali Baş Komandanın Şuşadakı çıxışı dünyaya müsajdır. Yəni biz torpaqarımızı heç vaxt, heç kimə güzəştə getmərik. Çünki Azərbaycan ordusunun bu günkü qəhrəmanları Həzi



Aslanovun, Mehdi Hüseynzadənin, Cəmil Əhmədovun, Gəray Həsənovun və onlarca digər qəhrəman babaların varisləridir. Ölkəmizin hər bir vətəndaşının borcu müstəqil dövlətimizin müdafiəsində duran Azərbaycan Silahlı Qüvvələrinin möhkəmləndirilməsi üçün bilik və bacarıqlarını səfərbər etməkdir.

***Şəddat*** Cəfərov